dəmşəlax 1) pinti, səliqəsiz. 2) Lazımsız, çirkin sözlər. (A.D. / 2)

1) dağınık, düzensiz, 2) çirkin laf.

dəngə Tayfa, nəsil. (A.D. / 2)

nesil, aşiret.

dəngiz-düngüz Seyrək, tək-tək. Ağajda dəngiz-düngüz cəviz qalıf. (A.D. / 2)

seyrek, ara-sıra.

dənnəməẋ Yığmaq. (A.D. / 2)

toplamak.

dəŋzərməẋ 1) yetişmək. Alçalar dəŋzərir. 2) cücərmək. kartoflar dəŋzərif. 3) qulaq asmaq, eşitmək, fikir vermək. (A.D. / 2)

1) büyümek , 2) çimlenmek, 3) dinlemek, işitmek.

dəvri Qazan qapağı. (A.D. / 2)

tencere kapağı.

dibəẋ Çəltik döyülən çala. (A.D. / 2)

dıbır Erkək keçi. (A.D. / 2)

erkek keçi.

dıbrıxmax Qaçmaq. (A.D. / 2)

kaçmak.

dıqqat Eyib. (A.D. / 2)

kusur. Hiçbir yerinde kusuru yoktur.

dıqqılı Balaca. (A.D. / 2)

küçük.

dıqqış Bir az. (A.D. / 2)

azacık.

dilab Ev şeylərini yığmaq üçün yer. Paltarları yığ dilaba. (A.D. / 2)

dolap (mobilya).

dılqır Dazbaş, başında seyrək tük olan (adam). (A.D. / 2)

kel kafa.

dim(n)iz Sakit. (A.D. / 2)

sakin (kimse).

dımbız Yumruq. (A.D. / 2)

yumruk.

dımbızdamax Yumruqla vurmaq. (A.D. / 2)

yumruklamak.

dımıx 1) çox qısaboylu (adam), 2) kiçikquyruqlu (qoyun). (A.D. / 2)

1) kısa boylu(kişi) , 2) küçükkuyruklu (kuzu).

ding Çəltik döyən qurğu. (A.D. / 2)

çeltik dövme makinesi.

dingə Hündür yer, təpə. Qoyunnar dingədə otduyur. (A.D. / 2)

yüksek yer, tepe.

dınqı Vanna. (A.D. / 4)

banyo.

dınqılı Kiçik, balaca. (A.D. / 4)

küçücük.

dınqılıja Kiçik, balaca. (A.D. / 4)

küçücük.

dinşəməẋ Qulaq asmaq. (A.D. / 4)

dinlemek.

dirik Çevik, qoçaq. (A.D. / 4)

çalışkan, çabuk (kimse).

dırıldamax Öz özünə danışmaq. (A.D. / 4)

kendi kendine konuşmak.

dişəməẋ Dişini dəyişmək. Əli kişi dişini dişiyif. (A.D. / 4)

dişini deyişmek.

dişərməẋ Cücərmək. Səfdiyim toxum dişərif. (A.D. / 4)

çimlenmek.

dişğarı Çöl, bayır. (A.D. / 4)

dışarı.

ditdili, diddi Ağcaqanad. (A.D. / 4)

sinek, sivrisinek.

dıydıx Sadəlövh, hər deyilənə inanan. (A.D. / 4)

saf, herşeye inanan.

diyi Təkər. Arabanın diyiri çıxıf. (A.D. / 4)

lastik.

diysinməẋ İyrənmək. (A.D. / 4)

iğrenmek.

dızıdaylax Çılpaq. Yay gələn kimi uşaxlar dızıdaylax düşür çölə. (A.D. / 4)

çıplak.

dızıx 1) yekəpər. Vəli elə dızıxdı, qapını da keçəmmir. 2) qorxmaz, cəsarətli. 3) qorxaq. (A.D. / 4)

1) iriyarı (insan için) büyük yapılı, kocaman, iri yapılı; 2) cesaretli; 3) korkak.

dızıxmax Qaçmaq. (A.D. / 4)

kaçmak.

dızırıx Külək, tufan, çovğun. (A.D. / 4)

rüzgar; fırtına.

dizmarı Qurudulmuş üzüm, kişmiş. (A.D. / 4)

kuru üzüm.

dobbu Çolaq. (A.D. / 4)

çolak, sakat.

dodu Avara. (A.D. / 4)

serseri.

doqqaz Küçə qapısı, həyət qapısı. (A.D. / 1)

sokak kapısı, avlu kapısı

dolab Hiylə, fırıldaq. (A.D. / 1)

hile.

dolafçı Hiyləgər, fırıldaqçı. (A.D. / 1)

dolandırıcı, düzenbaz.

dolambac Qarışıq, dolaşıq, əyri-üyrü (yol). (A.D. / 4)

eğri büğrü (yol).

dolambaş Dolambac, əyri-üyrü(yol). (A.D. / 4)

eğri büğrü (yol).

dolça Ağac və ya misdən hazırlanmış bir qulplu su qabı. (A.D. / 4)

ağaş veya bakırdan yapılmış tek kulplu su kabı.

doluğ Mədən. (A.D. / 4)

maden.

domara Qozbel. (A.D. / 4)

kambur.

donçar Kobud. (A.D. / 4)

kaba.

donnux Əmək haqqı, maaş. (A.D. / 4)

maaş.

doŋra Başda tüklərin dibində olan kəpək. (A.D. / 4)

kafada tüylerin dibindeki kepek.

doŋsumax Kədərlənmək, dərd çəkmək. (A.D. / 4)

üzülmek.

doydax Arıq. Bircə dənə doydax inəyim var. (A.D. / 4)

zayıf.

dozay Key, heç nə başa düşməyən. (A.D. / 4)

hiçbirşeyden anlamayan, kafasız.

dönəlgə Döngə. Dönəlgədən keş gə. (A.D. / 2)

viraj, dönemeç.

dördə:ẋ Yuxayayan. (A.D. / 4)

hamur tahtası.

döşüdolu 1) igid, qoçaq. O döşüdolu oğuldu. 2) dərdli. Döşüdolu adamdı amma ki səsin çıxartmır. (A.D. / 4)

1) yiğit, çalışkan 2) dertli.

duaxqapba Qız ərə gedəndən sonra düzəldilən gəlingörmə mərasimi. (A.D. / 1)

düğünden sonra gelini görmek için düzenlenen tören.

dumbuzdamağ Yumruqlamaq. (A.D. / 4)

yumruklamak; yumruk atmak.

duralğa Düşərgə. (A.D. / 2)

kamp.

dusər Külüng. Daş çıxarma və torpaq qazıma işlərində istifadə edilən bir ucu sivri, o biri ucu isə enli alət. (A.D. / 8)

taş çekme ve zemin delme için kullanılan sivri uçlu ve diğer ucu geniş bir alet.

duy vırmax Hər yerə, hər kəsə xəbər vermək. (A.D. / 4)

herhangi bir haberi herkese, heryere bildirmek.

duz Bazar ertəsi. Sabah duz günüdü. (A.D. / 4)

pazartesi.

dümələmməẋ Bir işi könülsüz, yavaş yavaş görmək. (A.D. / 4)

bir işi isteksiz yapmak.

dümləməẋ Birnəfəsə içmək. (A.D. / 4)

tek seferde içmek.

dümüẋ 1) hər işə qarışan, hər şeylə maraqlanan. 2) həvəskar. Bı da hər şeyin dümüẋüdü. (A.D. / 4)

1) Herşeye karışan, herşeyle ilgilenen

2) istekli.

düriyə Kişi üçün ikiüzlü, naxışlı gecə papağı. (A.D. / 2)

erkek için nakışlı şapka.

dürməẋ Yuxanın bükülmüş forması. (A.D. / 4)

yufkanın bükülmüş hali.

dürməẋləməẋ Yuxanı bükmək. (A.D. / 4)

yufkanı bükmek.

düşük Yersiz söz danışan, yüngül. (A.D. / 4)

boş konuşan, ağzı gereksiz laf yapan.

düyələẋ Yemiş. (A.D. / 3)

kavun.

ediləşməẋ Deyişmək. (A.D. / 4)

iki kişinin karşı karşıya herhangi konu ile ilgili bahse girmesi.

ehmalca Ehtiyatla. (A.D. / 3)

dikkatlice.

ejəşməẋ Mübahisə etmək. (A.D. / 5)

tartışmak.

elat Köçəri. (A.D. / 5)

göçebe.

elti *İki qardaşın arvadları. (A.D. / 5)*

iki kardeşin karıları.

enniqulax Yarpaqları enli olan pencər, göyərti. (A.D. / 5)

yaprakları geniş yeşillik çeşiti.

er Erkən. (A.D. / 5)

erken (vakit).

eryəti 1) başdansovdu, səliqəsiz. 2) müvəqqəti. (A.D. / 5)

1) dağınık. 2) geçici.

eşgar Yəqin. (A.D. / 5)

herhalde.

eşşəẋ Əlçatmaz yerdə işləmək üçün bənnaların, rəngsazların istifadə etdiyi taxtadan hazırlanmış qurğu. (A.D. / 5)

erişilemeyen bir alanda çalışmak için ressamların kullandığı tahtadan yapılmış alet.

evdax Dolu, bol. (A.D. / 5)

fazla, bol.

eygili Sakitlik. (A.D. / 5)

sessizlik.

eyhana Bəlkə, ola bilsin ki. Eyhana sənin bı işdən xabarın yoxdu. (A.D. / 5)

belki.

eymənməẋ Qorxmaq. (A.D. / 5)

korkmak.

eyzan Həmişə. Eyzan bir yerə toplaşıf söhbətdəşəriẋ. (A.D. / 5)

hep, her zaman.

ə:nə O tərəfə. (A.D. / 5)

o tarafa.

əbəçi Mamaça. (A.D. / 1)

bir kadına doğum işini yaptıran ya da işi, görevi doğum yaptırmak olan kadın; ebe.

əcir Əzab, əziyyət. (A.D. / 5)

azap, çile.

əfərda Güc, taqət. (A.D. / 5)

güç, kuvvet.

əfkələmək Yüngülcə tapdalamaq, ovmaq. Gə bir əz kürəyimi əfkələ. (A.D. / 5)

çitilemek, ovmak.

əkəşdənməẋ Lovğalanmaq. Az əkəşdən, elə bilirsən qıraxdan yaxşı görsənir? (A.D. / 5)

övünmek.

əl 1) dəfə. Paltarı bir əl yudum, ta sən yuma təmizdi elə aparıf sərərsən. (A.D. / 5). 2) tərəf. Birəz get sora dön sağ ələ. (A.D. / 2)

1) kere.

2) *taraf (karşı tarafa geçtim).*

əlah-salah Boş, bekar. Ona nə vare əlah - salah adamdı. (A.D. / 5)

hiç bir iş(şey) yapmamak; boş (geçinecek bir işi olmayan, işsiz).

əlardan Əl-üz dəsmalı. Əlardan gəti üzümü silim. (A.D. / 5)

havlu.

əlbeyxa O saat, o dəqiqə. Nə desən əlbeyxa gedif yerinə yetirir. (A.D. / 5)

hemen.

əlbəhə O saat, o dəqiqə. Əlbəhə getdi nənəsinə xabar verdi. (A.D. / 5)

hemen. Git bak ve hemen gel gec kalma.

əlçimləməẋ Yunu darayıb təmizləyərkən əl boyda etmək. Nənəm yunu darıyıf əlçimliyərdi. (A.D. / 1)

yunu tararken el kadar yapmak.

ələf Quru ot, saman. Bizim bağda ələf nəxantərəm desən var. (A.D. / 5)

kuru ot, saman.

ələf savını Əl-üz sabunu. Ələf sabını qurtarıf təzəsin almax lazımdı. (A.D. / 5)

el-yüz sabunu.

ələngə Böyük sümük. Bı ələngələri at itə yesin. (A.D. / 5)

büyük kemik.

əliyuxa Kasıb, yoxsul. O çox əliyuxa adamdı, ona köməẋ eləməẋ lazımdı. (A.D. / 5)

yoksul.

əlləmə Yekə daş (məcazi mənada). Əlləmə düşsün təpənə. (A.D. / 5)

büyük taş (mecaz).

əmdərməẋ Aşırıb tökmək, tökmək. Qabın içindəki suyun hamısın əmdərdi yerə. (A.D. / 4)

bir şeyi yere dökmek.

əmgəndimək̇ Əziyyət vermək, incitmək. O hər şeydən ötrü canın əmgəndiməz. (A.D. / 1)

eziyyet etmek, canını yakmak, kırmak.

əngizdəmək̇ Döymək, əzişdirmək. Gədəni möykəmcə əngəzdədilər. (A.D. / 2)

dövmek.

əpbək̇ Çörək. Bax gör əppək̇ bişif. (A.D. / 2)

ekmek.

ərdəmli Qüvvətli, güclü, bacarıqlı. O çox ərdəmli oğlandı. (A.D. / 2)

kuvvetli, güçlü.

ərəsət Bol, çox, həddindən artıq. Bıyıl ərəsət meyvə oldu. (A.D. / 2)

çok, daha fazla.

ərincək̇ Tənbəl. Bı qədər ərincək̇ olma, dur bir işin də qulpundan sən yapış. (A.D. / 5)

tembel.

ərkansız İnsafsız, rəhimsiz. Səni belə ərkansız bilməzdim. (A.D. / 2)

insafsız.

ərrik̇ Evlənmək vaxtı çatmış, ər olmaq vaxtı çatmış. (A.D. / 5)

evlenmek vakti gelmiş (erkek).

əsnaf Otaq. Oların əvinin əsnafları çoxdu, çox adam da gedə bilərsiz. (A.D. / 5)

oda.

əsnək̇ Axmaq, ağılsız. Əhmədin oğlunda bir qram ağıl yoxdu, çox əsnək̇ adamdı. (A.D. / 5)

akılsız, ahmak.

əvdiməẋ Dənləmək, bir-bir yığmaq, toplamaq. Kəfşəndə başşax əvdirirdıx. (A.D. / 7)

tane-tane toplamak.

əvgəntə Boş boş. Qoyasan elə əvgəntə gəzə, heş bir iş görmür. (A.D. / 7)

boş boş. Boş boş konuşma.

əyax Dəfə. (A.D. / 7)

kere, bir kere.

əyər-əngah Əgər. (A.D. / 7)

eğer.

əyirdəẋ Şirin qoğal. Nənəm əyirdəẋ bişirif gəlin yeyəẋ. (A.D. / 7)

poğaça , kurabiye gibi tatlı çeşiti.

əyirtməẋ Döymək, vurmaq. ağacnan bir-iki dənə əyirtdim qaşdı getdi. (A.D. / 7)

dövmek, vurmak.

əzvay Aciz. (A.D. / 7)

aciz.

farraş Tez, erkən. bı il yaz farraş gəlif. (A.D. / 7)

erken.

fasıx El altından iş çevirən. (A.D. / 7)

arkasından iş çevirmek (deyim).

fasıx Hiyləgər, kələkbaz. (A.D. / 7)

sinsi, kurnaz.

fayışdıx Asudəlik, sakitlik. (A.D. / 7)

sessizlik. Sessiz ortamları daha çok severim.

fərəməz Fərsiz, kütbeyin, key. (A.D. / 7)

beceriksiz, aptal, salak, sersem, kafasız.

fəriẋ Fərə. (A.D. / 7)

genç tavuk.

filinti Qoca, iş qüvvəsini itirmiş. (A.D. / 7)

yaşlı, çalışma gücünü yitirmiş.

findah Eynilə. (A.D. / 2)

aynen.

fırıldatmax Götürüb atmaq. (A.D. / 7)

fırlatıp atmak.

fırıtdamax Fitva vermək, ara qızışdırmaq. Sənin ağlın olsa fırıtdamağa baxmarsan. (A.D. / 7)

iki kişi arasındaki rekabeti artırmak, kızıştırmak.

firitdəməẋ Qızışdırmaq, sövq etmək. Uşağı firitdəmisən, dalaşıflar. (A.D. / 7)

körüklemek.

fırramax Ələ salmaq, dolamaq. (A.D. / 7)

ele düşürmek, enayi yerine koymaq, oyalamak.

fışqa Fit. (A.D. / 2)

ıslık.

fışqalamax Fit vermək, fit çalmaq. (A.D. / 8)

ıslık çalmak.

gap 1) söhbət. **gap eləməẋ** 2) Söhbət eləmək. (A.D. / 2)

1) sohbet, 2) konuşmak.

gay Ağılsız. (A.D. / 7)

akılsız.

gedişməẋ Mübahisə etmək, sözləşmək. (A.D. / 7)

bahse girmek.

gəbə Kiçik xalça. (A.D. / 7)

halı.

gərrənməẋ Yoğunlaşmaq, dəyişmək. Səsin gərrənif, də:sən kişiləşirsən. (A.D. / 7)

kalınlaşmak; sesin kalınlaşması; deyişmek.

gəv Kürəkən. (A.D. / 2)

damat.

gəvrəẋ Kövrək. (A.D. / 3)

kırılgan.

gəyəv Kürəkən. (A.D. / 2)

damat.

gijələh Avara, çarəsiz. (A.D. / 8)

serseri.

gilə Üzüm dənəsi. (A.D. / 8)

yüzüm tanesi.

gimiriẋ İri, narın olmayan. (A.D. / 8)

büyük.

gimriẋlənməẋ Xırdalanmaq, parça-parça olmaq. Balta dəyən kimi gimriẋləndi töküldü yerə.

(ADQŞ s 183)

parçalanmış, bir parça olmak.

gınaşmax Məsləhətləşmək. (A.D. / 8)

danışmak.

gir Güc, qüvvə. (A.D. / 8)

güç, kuvvet.

gırdın Ağacın kəsilmiş iri gövdəsi. Gırdınnarı doğra yığ bir tərəfə. (ADQŞ s 183)

ağacın kesilmiş gövdesi.

girələnməẋ Vurnuxmaq. (A.D. / 8)

yerinde duramamak.

girəv Nağd, əldə olan. (A.D. / 8)

nakit.

girəvə Fürsət, imkan. (A.D. / 8)

fırsat.

girifdar Avara. (A.D. / 8)

serseri.

girinc Bezdirmək. Məni girinc eliyif. (A.D. / 8)

biriyle bıkıncaya kadar uğraşmak.

girri 1) çoxlu, xeyli. Girri var-dövləti vardı. (ADQŞ s 183). 2) münasib, layiqli. Girri bir şeyin varsa gəti. (ADQŞ s 183)

1) çok. 2) makul, layık

giyəv Kürəkən. (A.D. / 8)

damat.

gizdilim Gizli. (A.D. / 8)

saklı, gizli.

god Ölçü qabı. Godnan taxıl ölçəllər. (ADQŞ s 183)

ölçü kabı.

göbələẋ Böyrək. soyuğ oluf nədisə göbələyim yaman ağrıyır. (A.D. / 8)

böbrek.

gödən 1) qarın. 2) mədə. (A.D. / 8)

1) karın 2) mide.

göhəri Armud növü. (A.D. / 8)

armut türü.

gön Dəri. (A.D. / 8)

deri.

göy 1) xəsis 2) rəng 3) səma 4) dəyməmiş meyvə. (A.D. / 8)

1) cimri 2) renk 3) gökyüzü 4) Olgunlaşmamış meyve.

göyəzə Xəsis. (A.D. / 8)

cimri.

gözə Sulu, nəmişlik; yaşıl çəmənlik; rütubətli yer. (A.D. / 8)

1) rutubetli yer 2) yeşil çimenlik.

gumuldamax Zümzümə etmək. (A.D. / 8)

mırıldanmak.

guppun Böyük, ağır çəkic (guppun kimi ağır). (A.D. / 8)

büyük, ağır.

gücürrəməẋ Çalışmaq, səy göstərmək. Gücürrədiẋ axşamacan otu çalıf qutardıx. (ADQŞ s 183)

çalışmak, çaba göstərmək.

gülbırnı İtburnu. (A.D. / 8)

kuşburnu.

gülgüləməẋ Danlamaq. (A.D. / 8)

azarlamak.

gülmux Mıx. (A.D. / 8)

dübel.

günü Arvadın üstünə başqa arvad almaq. (A.D. / 1)

karısının üstüne başka karı almaq.

gürgələməẋ Yola verməmək, incitmək. Yola getmillər, gürgəliyir gəlini. (ADQŞ s 183)

rahatsız etmek, eziyet vermek, kırmak.

gürşad Güclü leysan. (A.D. / 8)

sağanak yağmur.

güvə Ziyanverici həşərat. (A.D. / 8)

zararlı böcek.

güz Payız. (A.D. / 8)

sonbahar.

güzdəẋ Payızda göyərən ot, payızotu. (A.D. / 8)

güz zamanı çıkan ot, güz otu.

güzəm Payızda qırxılan yun. Güzəm çox yaxşı olmur. (ADQŞ s 183)

sonbaharda kazınan yün.

güzəm Yayın ikinci yarısından sonra qırxılan qoyun yunu, quzu yunu. (A.D. / 8)

yazın kazınmış koyun yünü ve kuzu yünü.

hadıx Mamaça. (A.D. / 3)

ebe.

hadıxçı Uşaq tutan qadın, mama. (A.D. / 3)

ebe.

haqqına Həqiqətən. O:n əməyi, haqqına üsdümüzdə çox oluf. (ADQŞ s 184)

gerçekten, hakikaten.

hal İnanclara görə əcaib məxluq; cin. (A.D. / 8)

inança göre acayib yaratık, cin.

hampa Varlı, dövlətli. (A.D. / 8)

varlıklı.

hana Xalça toxumaq üçün dəzgah. (A.D. / 1)

halı dokuma dezgahı.

handa bir Tək- tük, çox az. (A.D. / 8)

tek tük, çok az.

harfa Ədəbsiz. (A.D. / 8)

edepsiz.

harfa-harfa Ədəbsiz (söz). (A.D. / 8)

edepsiz (laf).

harınnamax Yolunu azmaq. (A.D. / 8)

yolundan sapmak, kimsəyə saygısı kalmamak.

hasıl Ağıllı, qanacaqlı. (A.D. / 2)

akıllı, söz dinleyen.

haşan-keşən Var-dövlət. (A.D. / 2)

zenginlik.

hav 1) buğ, buxar. 2) yaranın çirklənməsi; irinləməsi (hav dərmanı). (A.D. / 8)

1) buğ, buhar.2) yaranın iltihablanması.

havalammax Dəli olmaq, başına hava gəlmək. (A.D. / 9)

çıldırmak, delirmek.

havır Əsəb. (A.D. / 9)

aşırı sinir.

hay-hay Süddə bişirilmiş yuxa çörək. (A.D. / 9)

sütte pişirilen yufka.

helləməẋ Tökmək, əndərmək. (A.D. / 9)

bir şeyi kaldırıp dökmek.

herağaş Vaxtından əvvəl, tez (herağaş balalayan qoyun). (RV s 624)

vaktinden önce.

heşən Buğda döyərkən istifadə olunan kənd təsərrüfatı aləti (heşən yaba). (RV s 624)

buğday öğütme makinesi.

heşpeşə Vərdiş, adət. (A.D. / 9)

alışkanlık, adet.

heyvərə Eybəcər, pis, əcaib, kobud. (A.D. / 9)

çirkin, kaba.

həblə Belə (həblə-həblə işlər). (A.D. / 9)

böyle.

həfcoş Qarışıq (yemək). (A.D. / 9)

karışık yemek.

həfçi Xəbərçi. (A.D. / 9)

aralıkta haber getirip götüren kimse.

həfgələməẋ Əl ilə bir yeri və ya bir şeyi sürtə sürtə təmizləmək. (A.D. / 5)

eliğle bir şeyi ya da bir yeri kuvvetle sürte sürte temizlemek.

Həjət 1) alət 2) balta. (A.D. / 9)

1) alet 2) balta.

həkət İş açma; başına iş açma. Mənim həkətinən işim yoxdu. (RV s 624)

kendi başına iş açma (deyim).

həkimxana Xəstəxana. (A.D. / 1)

hastane.

hələmçün Yelləncək. (A.D. / 9)

salıncak.

hə̈lim 1) düyünü qaynatdıqdan sonrakı suyu; 2) mülayim (insan). (A.D. / 9)

1) haşlanmış pirincin suyu

2) sakin(kişi).

həllav Yuxarı. (A.D. / 9)

yukarı.

həlləhüşən Fırıldaqçı. Ömrü boyu həlləhüşən olufsan. (A.D. / 9)

dolapçı.

həmbiz Xeyli. (A.D. / 9)

çok fazla.

həmənsur Gülçiçəklilər fəsiləsinə aid bitki, itburnu çiçəyi. (A.D. / 9)

kuşburnu çiçeği.

həməriẋ Yad.

yabancı.

həmərsün, həməsür İtburnu. (A.D. / 9)

kuşburnu.

həməsalah Əşyanın hissələri. (A.D. / 9)

herhangi bir eşyanın parçaları.

həmgəl Şərikli. Gəl elə həmgəl işləyəkiş də tez qurtarsın. (A.D. / 9)

ortak.

həmzat Bəla; inanclara görə gözəgörünməyən qüvvə (həmzat vurmaq). (A.D. / 9)

bela, inança göre gözegörünmez kuvve.

həndəvər Ətraf, yan-yörə. (A.D. / 8)

etrafında.

həni Danışqan. (A.D. / 9)

çok konuşan (kişi).

hərkə-hərkə Böyük-böyük (danışmaq). (A.D. / 9)

büyük büyük (konuşmak).

hərsin Xamır kəsmək üçün alət. (A.D. / 9)

hamur kesme aleti.

həsi Süd, su və undan bişirilən duru xörək. Nənə birəz həsi pişir içəẋ. (A.D. / 9)

süt, su, undan yapılan sıvı yemek.

həşəri Dalaşqan, çığır-bağır salan. (A.D. / 9)

kavgacı.

həşəri Forslu. (A.D. / 9)

bakımlı (kişi).

həşir-heymə Dağınıq. (A.D. / 9)

dağınık.

hətüylü Tələsik, başdansovdu. (A.D. / 9)

baştan savma, aceleyle.

həvə Palaz toxumaq üçün alət. Bugün həvə vurmaxdan yoruldum. (A.D. / 9)

halı dokuma aleti.

həvirrəşməẋ Səs-səsə vermək, bir-birinə qoşulub hürmək. İtdər həvirrəşif düşdü üsdümə. (A.D. / 9)

köpeklerin hepsinin aynı anda havlaması.

həviş Nəm, yaş. Paltar nəm qalıf. (A.D. / 9)

yaş, tam kurumamış. Çamaşır yaş kalmış.

həybə Yol gedərkən, at belində səfərə çıxarkən paltar və azuqə götürmək üçün istifadə olunan məişət əşyası. (A.D. / 9)

ata binerken, yol çıkarken, giyim ve başka eşyalar için kullanılan bir ev aleti.

hikkə Əsəb, hirs. (A.D. / 6)

sinir.

hin Tövlə. (A.D. / 6)

ahır.

hırıldamax Gülmək. (A.D. / 6)

gülmek.

hor Dələmə. Suyunu qaynadıb süzdükdən sonra alınan qatı yemək növü. (A.D. / 6)

yemek çeşiti.

horux Pinti. (A.D. / 6)

dağınık.

hoşdu Daşlı, kollu. (A.D. / 6)

taşlık, çalılık.

hörqələnməẋ Hürkmək. (A.D. / 6)

ürkmek.

Hörüh Saç, tel; uzun saç. (A.D. / 1)

saç, uzun saç.

hulumçax Yelləncək. (A.D. / 1)

salıncak.

huşdurum Yaddaşı zəif olan, unutqan. (A.D. / 6)

unutkan.

hüllükçü, hüllühbaz Yalançı. (A.D. / 6)

yalancı.

hüllüver Yüksək, yuxarı. Ağacım yaman hüllüverə getdi. (A.D. / 6)

yüksek.

hüllüẋbaz Yalançı. (A.D. / 6)

yalancı.

hülü Şaftalı növü. (A.D. / 6)

şeftali çeşiti.

hüşdürüm Ağılsız. (A.D. / 6)

akılsız.

hüşül Xəşil. (A.D. / 2)

hamurdan yapılan yemek.

hütdülüm Ağılsız, yüngülxasiyyət. (A.D. / 6)

akılsız.

xaçirdəg Təndirin ağzına qoyulan dəmir qapaq. (A.D. / 1)

tandırın ağzını kapamak için demirden kapak.

xafdan Qəflətən, gözlənilmədən. (A.D. / 2)

ansızın, beklenmedik.

xam 1) əkilməmiş torpaq 2) Nabələd 3) Minilməmiş at 4) işlənməmiş. Get onu orda xam sabun var onuynan çimizdir. (A.D. / 6)

1) ekilmemiş toprak 2) birşeyden habersiz 3) binilmemiş at 4) kullanılmamış (sabun).

xama 1) çiy südün üzü. 2) xalça toxumaq üçün ip. (A.D. / 1)

1) çiğ sütün yüzü. 2) halı dokuma ipliği.

xamra Maya. (A.D. / 1)

hamur mayası.

xamtav Bir az xam, bir az naşı, təcrübəsiz. (A.D. / 6)

deneyimsiz.

xaral Kisə, böyük torba. (A.D. / 2)

çuval, kese.

xaşa Kisə. (A.D. / 2)

kese.

xaşal qarın Yekə qarın. (A.D. / 6)

göbekli (kişi).

xaşalqardaş Yemək dostu. (A.D. / 6)

yemek dostu.

xaşavlamax Nəm çəkmək, rütubət çəkmək. (A.D. / 6)

rutubet çekmek.

xay Gic, ağılsız. (A.D. / 6)

akılsız.

xellәẋ Xeyli, çox. Böyün xellәẋ ot çaldım. (ADQŞ s 185)

çok, fazla.

xeyrat aşı Xeyirxahlıq məqsədilə bişirilən aş. (A.D. / 8)

hayır niyyetine yapılan pilav.

xəf Yavaş, asta. (A.D. / 2)

yavaş, usulca.

xəfəki Səssiz-küysüz. (A.D. / 2)

sessiz, sakin.

xəkirizdənməẋ Yatmaq. (A.D. / 2)

uyumak.

xəkrizdəməẋ 1) oğurlamaq 2) yatmaq. (A.D. / 2)

1) çalmak, 2) uyumak.

xəlbir Buğdanı, arpanı və s. qarışıqlardan təmizləmək üçün məişət əşyası. (A.D. / 2)

buğday, arpa arıtma aleti.

xələtdəməẋ Təhqir etmək, söymək. (A.D. / 2)

hakaret etmek, sövmek.

xəlvətcə Gizli. (A.D. / 2)

gizlice.

xəmişdiy Sakitlik. Bıra çox xəmişdiydi. (A.D. / 2)

sessizlik.

xəşə Torba, kisə. (RV , s 625)

çuval.

xəşil Undan hazırlanmış yemək növü. (RV, s 625)

undan yapılan yemek.

xəy Ağılsız, huşsuz. (A.D. / 2)

akılsız.

xəzəz Yaz gələndə meşədə bitən soğana oxşar yabanı bitki. (RV , s 625)

ilkbaharda ormanda büyüyen soğana benzer yabani bitki.

xijm Hücum. (A.D. / 2)

saldırı.

xıl Çox, xeyli. Mənim bir xıl uşağım var. (A.D. / 2)

çok fazla.

xiləh Çoxlu, böyük. (RV, s 625)

fazla, çok.

xınız Xain. (A.D. / 2)

hain.

xınzır Varlı. (A.D. / 2)

varlıklı, zengin.

xıpa Gödək, boyca gödək. (A.D. / 2)

kısa, kısa boylu.

xipər Gödək, boyca qısa. (A.D. / 2)

kısa, kısa boylu.

xıra Dəyməmiş, kal yemiş, qovun. (RV, s 625)

olgunlaşmamış kavun.

xırdxəşil Əzik-üzük. Çox dəjəl uşaxdı, aldıxlarımı xırdxəşil eliyif atdı ora. (RV, s 625)

ezik, ezilmiş ya da yassılmış.

xırxalamax Boğazından tutmaq, boğazlamaq. (A.D. / 2)

boğazını yakalamak.

xırnəẋ Dovşan balası. Böyün bir xirnəẋ tutmuşam. (A.D. / 2)

tavşan yavrusu.

xırraşmax Dalaşmaq. (A.D. / 2)

savaşmak.

xırsız 1) güclü, qüvvətli 2) qanmaz, kobud. (A.D. / 2)

1) güçlü, kuvvetli, 2) lafdan anlamaz, kaba.

xiti Yaltaq. (A.D. / 2)

dalkavuk.

xoxan Uşağı qorxutmaq üçün vasitə. A bala, oranı dağıtma ha bax xoxan gəlif yeyər səni. (RV, s 625)

çocuğu korkutmak için vasıta.

xorazillə Zoğal. (A.D. / 2)

kızılcık.

xosma Daxma. O vaxdar bizim də xırda xosmamız oluf. (A.D. / 2)

kulübe.

xoşəkləmək Saralıb tökülmək. (A.D. / 2)

sararıp dökülmek (meyve, yaprak vb.).

xotman Ot topası. Beş-on xotma otum var. (ADQŞ, s 185)

çim topu.

xörjət Çirkin, eybəcər. (A.D. / 2)

çirkin.

xudru Boş. (A.D. / 2)

boş; boş (laf).

xuduru Nahaq, əbəs. (A.D. / 2)

haksız, abes.

xuruş, xuruştuluğ İnad, acıq, hirs. (A.D. / 2)

inat, hırs.

xuruşdulux 1) bəhanə 2) tərslik (RV , s 625)

Bahane, inat.

xüləseyki Xülasə. (RV, s 625)

kısacası, özet.

içinə sam yeli əsmək Tez-tez xəstələnmək. (A.D. / 2)

çok çabuk hastalanma.

ilim zalım Həmişə, hər zaman, bütün il. (RV , s 625)

hep, her zaman.

ilişdimə̇ 1) tora salmaq, çıxılmaz vəziyyətə salmaq. Onu elə ilişdimişəm ki, çətin qutara. 2) vurmaq. Şapalağı elə ilişdidi qulağımın dalınnan. (A.D. / 2)

1) ağına düşürmek. 2) vurmak, çakmak. Bi tane çaktı yere yıkıldım.

ilitmək İlıqlatmaq. (A.D. / 2)

suyu sıcak ve soğuk arası yapmak.

illac Əlac. (A.D. / 2)

çare.

illacım yoxdu Halım yoxdu. (A.D. / 2)

halim yok.

illaf Lap. (RV, s 625)

çok (iyi).

illah Nə qədər. İllah elədim, genə sözümə baxmadı. (A.D. / 2)

ne kadar.

illahım Xüsusən. İllahım da bılar bizə gün vermir. (A.D. / 2)

özellikle.

ilmiddəm Həmişə. İlmiddəm qonşuya paxıllığ eli:r. (A.D. / 2)

hep.

ilmizalım Həmişə. (A.D. / 4)

hep.

inax Xəstəlik adı. (A.D. / 2)

hastalık ismi.

incəvara Yaxşı ki. (A.D. / 3)

iyi ki. İyi ki ben bu işi yapmadım.

inişil Ötən il yox o biri il. (RV , s 625)

geçen yıldan önceki yıl.

iraxlamaq Hazırlamaq. Yerini iraxladım, get yat. (RH, s 625)

hazırlamak, yapmak.

irəd İz, ayaq izi. (RV , s 625)

iz, ayak izi.

irəli 1) bundan əvvəl, 2) qabağa. (RV, s 625)

1) bundan öncesinde 2) ileri.

irəzə Cəftə. Qapının irəzəsi qırılıf. (ADQŞ s 186)

kapı kolu.

irəzələməẋ Cəftələmək. Gedəndə qapını irəzəliyərsən ha. (ADQŞ, s 186.)

kapıyı kapatmak.

irişməẋ Mənasız yerə şit-şit gülmək. (A.D. / 2)

anlamsız yerə gülmek.

isidməẋ Qızdırmaq. (A.D. / 2)

ısıtmak. Isısını yükselterek sıcak duruma getirmek, ısınmasını sağlamak

işgil Qıfıl. (RV , s 625)

kilit.

işgil Cəftə. (A.D. / 2)

kapı kolu.

ityösünnü Pis xasiyyətli. (A.D. / 2)

karakterce kötü biri, kötü huylu.

ivhallı Xoşxasiyyət. (A.D. / 2)

iyi niyyetli.

kaf Qoyun tövləsi. (A.D. / 2)

ahır.

kafır bəndə Pis bəndə. (A.D. / 2)

kötü kul.

kaha Daşlar arasında komaya bənzər yer, sığınacaq. (RV , s 625)

taşların arasında kulubeye benzer yer, sığınacak.

kahal Başısoyuq, tənbəl, ağırtərpənən. (RV , s 625)

tembel.

kahal 1) göz həkimi 2) ləng . Kahal tərpənmə cəld ol. (ADQŞ, s 186.)

1) göz doktoru 2) yavaş, ağır, geç, geri, geç kalan.

kal Yetişməmiş meyvə. (A.D. / 2)

olgunlaşmamış meyve.

kalafa Qazılmış yer. (A.D. / 2)

çukur.

karrı Qoçaq. (RV , s 625)

çalışkan.

karsız Fərasətsiz, gücsüz. (RV , s 625)

güçsüz, beceriksiz.

kasad Az, çox olmayan. (RV , s 625)

az, fazla olmayan.

keçalat Keçid. Keçalatdan keçdıx gəldıx. (ADQŞ, s 186)

geçiş.

kertman Kənd təsərrüfatı aləti. (RV , s 625)

tarım aracı.

kəfgir Plov çəkmək üçün məişət əşyası. (RV , s 625)

pilav koymak için mutfak eşyası.

kəfrəm Yorğanın, döşəyin üzü. (A.D. / 2)

yorgan yüzü, döşek yüzü.

kəfşən Çaykənarı yerlərdə əkin sahəsi; çəltik becərilən, bostan əkilən yer. (RV, s 625)

ırmak çevresi ekin alanı.

kəkəşdənməẋ Lovğalanmaq, özünü hamıdan üstün tutmaq. (A.D. / 2)

övünmek.

kələntə, kələnti Dəryaz. Ot biçmək üçün alət. (A.D. / 2)

çim biçmek için alet.

kəmsiẋləməẋ Bağlamaq, boğazına ip keçirmək. İti dalda yerdə kəmsiẋlədim ki, uşax-muşax qorxmasın. (ADQŞ, s 186)

kapatmak, boğazına ip takmak.

kəndi Taxıl, un saxlanan çəlləyə oxşar ağac qab. (A.D. / 2)

tahıl, un koymak için kab.

kəpirli Daşlı. (A.D. / 2)

taşlık.

kərənayı Açıq . Qapı açıq qalıb. (A.D. / 3)

açık. Kapı açık kalmış.

kərdiyar Arpa ilə buğdanın qarışığı. Kərdiyar ununun çörəyi yaxşı olur. (ADQŞ, s 186.)

arpa, buğday karışımı.

kərəm Dəfə. Neçə kərəm dedim qulaq asmadı. (A.D. / 2)

kez.

kərəvəngi Boş bekar gəzən, avara. (A.D. / 2)

serseri.

kətə Qutab. (A.D. / 5)

börek. Etli börek vb.

kifşəməẋ Kiflənmək, xarab olmaq. (RV, s 626)

bozulmak, kötü kokmak.

kilid Qıfıl, qapıya daldan keçirilən uzun dəmir. (A.D. / 2)

kilit.

kilkə Saç. (A.D. / 2)

saç.

kişe Qız uşağı. (A.D. / 2)

kız çocuğu.

kolavat Xam yer. Bı tərəflər kolavat yerdi. (ADQŞ, s 187)

ham yer.

kolpannamax Ətrafa şaxələnmək, kolpan bağlamaq. Qaratikan kolpannıyıf bıraları basıf. (ADQŞ, s 187)

çevreyi sarmak. Karadiken çalısı çevreyi sarmış.

kopalamax Topalamaq, bir yerə yığmaq. (A.D. / 2)

bir yere toplamak.

kora Quzu saxlanan yer. (A.D. / 2)

ahır.

koralmax Kütləşmiş bıçaq. (A.D. / 2)

körelen bıçak.

korşalmax Kütləşmək, kəsərdən düşmək. Baltanın ağzı korşalıf. (ADQŞ, s 187)

körelmek.

köpüẋ 1) qəpik pul 2) Suyun köpüklənməsi, sabun köpüyü. (RV, s 626)

1) kuruş, 2) köpük, sabun köpüğü.

kösəv Köz, od, ocaq. (RV , s 626)

köz; iyice yanıp ateş durumuna gelmiş kömür ya da odun parçası.

köşə Göndən nazik şəkildə kəsilmiş hissə, bağ. Gönnən köşə kəsif çarıx tikirdilər. (ADQŞ s 187)

deriden yapılmış parça, bağ. Ayakkabıya bağ dikdirmek.

kuçən Kiçik it balası. (A.D. / 2)

köpek yavrusu.

kurpuşdamax Çalxamaq. Qatığı töẋ tuluğa kurpuşda. (ADQŞ, s 187)

sallamak.

küf Yelləncək. (A.D. / 8)

salıncak.

küləcə Qolsuz, yarımxəz, isti geyim. (RV, s 626)

kolsuz sıcak tutan giyim.

külfət Ailə. (RV, s 626)

aile.

külləmə Sümüksüz ət, xalis tikə. (A.D. / 8)

kemiksiz et.

küllənmək Boş yerə vaxt keçirmək. (A.D. / 7)

boş yere vakit geçirmek.

künə Yumurtanın yastı tərəfi. Yumurtanın künəsi bərẋdi. (ADQŞ s 187)

yumurtanın yatay kısmı.

kür Pis xasiyyətli, ağlağan, nadinc və s. uşaq. (A.D. / 2)

afacan (çocuk).

kürlüküf Darmadağın (viranə). (A.D. / 2)

paramparça.

kürnəşməẋ Sıxlaşmaq, kip halda toplaşmaq. İsdi olanda qoyunnar kürnəşir, az qalır bir-birinin qarnına girsin. (ADQŞ, s 188)

yoğunlaşmak.

kütah Əlac (kütahı kəsilmək). (RV, s 626)

çare.

küz 1) qoyun-quzu saxlanan yer. 2) körpə quzular üçün əkilmiş zəmi, arpa zəmisi. Quzuları bırax küzə, bir əz otdasın. (ADQŞ, s 188)

1) ahır

2) tahıl tarlası.

qab Ağacın gövdəsində əmələ gələn göbələk. Qab hər ağaşda olmur. (ADQŞ, s 188)

mantar.

qabqarmax Düzəltmək. (RV, s 626)

yapmak, düzeltmek.

qablı Xörək adı. Əti də doğruyursan, noxut, lobuya tökürsən öz namına bişirirsən bıą qablı deyirlər. (ADDL, s 103)

yemek adı.

Qafçarda: Üstünə qab-qacaq yığılan yer. Taxtadan bir qafçarda: bağlatmax isdiyirəm. (ADDL s 123)

tabak bulaşık kurutma sepeti.

qağ Səfeh, gic. Qağ adamnan iş görən olmaz. (ADQŞ s 188)

aptal, budala, saçma, enayi.

qağa 1) ata 2) böyük qardaş. Qağamı çağırmışam gələjəy indi. (ADDL s 108)

1) baba 2) büyük kardeş, abi.

qahal Qaramal salınan çəpərlənmiş və ya çubuqdan hörülmüş yer. Yayda qaramalı qahala salarıx. (ADQŞ s 188)

inek, koyun, kuzu gibi hayvanların bulunduğu, çubuktan örülmüş yer.

qaqel Arıq qoyun. Yaman qaqel qoyundu. (ADDL s 108)

zayıf koyun (inek).

qaqı Qardaş. (RV , s 626)

erkek kardeş.

qalaça Kaha. Getdi qalaçıya tərəf. (A.D. / 2)

mağara.

qalaxlamax Qabı ağzına qədər doldurmaq. Qabı qalaxladım verdim. (ADQŞ s 188)

kabı ağzına kadar doldurmak, tıka basa doldurmak.

qalın Çörəyin bir növü, sacda bişirilən nazik çörək, yuxa. Qalın bişirəndə heşkim o biri çörəxdən yemir. (ADDL)

ekmek, yufka çeşiti.

qallaş Zəhmətsevən, zəhmətkeş. Sən həmişə elə belə qallaş olufsan. (ADDL)

çalışkan.

qamarlamax Əlindən dartıb almaq. Nətər çəkdisə qamarrıyıf aldı əlimnən. (A.D. / 2)

çekip almak, zorla almak.

qamqalax Odun yanarkən ondan qopan xırda parçalar, qırıntılar. Odun yanandan so:ra qamqalağı qalır. (ADDL)

ateş sonrası oluşan kalıntılar.

qancalmax Aclıqdan zəifləmək, taqətdən düşmək. Bu it acınnan qancalıf gedif. (ADQŞ s 188)

açlıktan zayıflamak.

qandalax Saziş, razılıq, müqavilə. Hə müqavilə indi derlər o vaxt qandalax deyirdıx. (ADDL)

anlaşma.

qanırmax Qatlamaq, əymək (sındırmaq). (RV , s 626)

eğmek, katlamak.

qanşar Hündür yer.Çıx qanşara səni yaxşı görüm dana. (A.D. / 2)

yüksek yer.

qantəpər Dərman bitkisi. Qantəpər də bitir bizim yerdə. (ADQŞ s 188)

ilaç bitkisi.

qapalax Həyət və ağılın çubuqdan düzəldilmiş qapısı. Qapalağı aç heyvannar çıxsın çölə. (ADQŞ s 188)

tahtadan yapılan kapı.

qaraarpa Arpa növü. (RV, s 627)

arpa çeşiti.

qarabağır Qaraciyər. (A.D. / 2)

karaciğer.

qaraçuxa İnanclara görə gözəgörünməz qüvvə. (RV, s 627)

inançlara göre gözegörünmez güç.

qaradiş Dördillik. Erkək qısmı dördə addıyanda olur qaradiş. (ADQŞ s 188)

dörtyıllık.

qarağan Payızda yetişən ot. Qarağanı heyvana da verərdilər, təndirdə də yandırardılar. (ADDL)

sonbaharda büyüyen, yetişen ot.

qarağat Qırmızı giləli meyvə. (A.D. / 2)

frenk üzümü.

qaral 1) səbr, dözüm 2) norma (yeməyi qaralında bişirmək). (RV, s 627)

1) sabır 2) kural.

qarama Bataqlıq. (A.D. / 2)

bataklık.

qaravəlli Lətifə, məzhəkə. (A.D. / 2)

fıkra.

qaravış Quş adı. (RV, s 627)

kuş adı.

qarayel Hər şeyi qurudub xarab edən şiddətli isti və quru külək. (RV, s 627)

sıcak ve kuru rüzgar.

qardaşdıx 1) yaxın olmaq, bərabərlik. 2) ögey qardaş. (RV, s 627)

1) yakın olmak, beraberlik 2) üvey kardeş.

qarellə Tikanlı ağacda bitən qırmızı rəngli meyvə. Qarellənin yaxşı kampotu olur. (ADDL)

frenk üzümü.

qarğasoran Hər şeylə maraqlanan, çürükçü. Bı da lap qarğasoran oluf. (ADDL)

herşeyle ilgilenen.

qarıxmax Tələsmək. (A.D. / 2)

acele etmek.

qarnax Uzun zaman qar yığılıb qalan kiçik dərə. belə dərələr qarnaxdı. (ADDL)

uzun süre kar biriken yer.

qarsıx Yanmış, ütülmüş. (RV, s 627)

yanmış, ütülmüş.

qarsmax Gödəltmək. (A.D. / 2)

kısaltmak.

qartopu 1) kartof 2) qar topu. (RV, s 627)

1) patates 2) kar topu.

qasi Xırda balıq. (A.D. / 2)

ufak, küçük balık.

qatma 1) ip, kəndir. 2) nazik ip, bağ. (A.D. / 2)

1) halat 2) ince ip, bağ.

qatmax 1) qoşmaq, salmaq. Dananı qatdım tavlıya. 2) yoğurmaq. (ADQŞ s 188)

1) bırakmak. Hayvanları çayıra bıraktım.

2) yoğurmak (hamur)

qavara Görkəm. Lətifin qavarası laf qəşəydi. (ADDL)

görünüm, görüntü.

qavaraxlamax Qovmaq. İt heyvannarı qavaraxladı. (ADQŞ s 188)

kovalamak.

qavılı Ət,soğan və ləpədən bişirilən bir az sulu xörək. kəntdə o ev olmazdı ki orda qavılı pişməsin. (ADDL)

yemek adı.

qavırğa Qovurulmuş buğda. (A.D. / 2)

kavurulmuş buğday.

qavırma Yağda qovurulmuş ət. (RV, s 627)

yağda kavurulmuş et.

qavız Buğda və ya arpanın qabığı. Buğdanı təmizdiyəndə qavızını yaxşı çıxart. (ADDL)

buğday veya arpanın kabuğu.

qavlama 1) oturacağı yastı mis qab. 2) qazança, ağzı qapaqlı mis qab. Qavlamada pişən yeməẋlər yaxşı olur. (ADDL)

bakır kap, bakır tencere

qavlamax Yerbəyer etmək, qablaşdırmaq. Paltarrarı yükə qavladım. (ADQŞ s 188)

paketlemek.

qaynaşdıx Qumlu təpə. biz elə qumlu təpə yerinə qaynaşdıx deyiriẋ. (ADDL)

kumluk yer, tepe.

qaysava Qaysıdan bişirilən xörəyin adı. (A.D. / 1)

erikden yapılan yemek.

qəcələ Sağsağan. (A.D. / 2)

saksağan.

qəhəl Qaramal salmaq üçün şaxdan çəkilmiş dairəvi çəpər. Heyvannarı yığın qəhələ. (ADDL)

ahıl.

qəhət Qıtlıq, yox olmaq. (qəhətə çıxmaq). (RV, s 627)

kıtlık, yok olmak.

qəhmər Tərəfini tutmaq. (RV, s 627)

birisinin tarafında olmak, birinden yana olmak.

qəjəl Yamac. (A.D. / 2)

yamaç.

qəjir Aravuran, araqarışdıran. Qəjir olma ə! (ADDL s 126)

arabozan, ortalığı karıştıran.

qəlbi Hündür, uca. (A.D. / 2)

yüksek.

qəlib Keçə. Qoyunun yunun döyüf qəlif düzəldərdilər. (A.D. / 2)

koyun yununun taranmamış biçiminden yapılmış parça.

qəmə Xəncər. (RV, s 627)

hançer.

qəməlti Bıçaq. (A.D. / 3)

bıçak.

qənşər Qabaq, ön. (A.D. / 2)

ön. Önüme çık seni daha iyi görebileyim.

qəntdan Qənd qabı. (A.D. / 7)

şeker saklama kabı.

qəpi Qapı. (RV , s 627)

kapı.

qərçi Qardaş. Mənim iki qərçim var. (ADDL)

kardeş (erkek).

qərəllə Qaragilə, yabanı ağac növü. (RV, s 627)

yabani ağaç türü.

qərəyçi Haray qoparan, səs – küy salan. (RV, s 627)

gürültü yapan.

qəri Qocalıb əldən düşmüş qadın, qarı. (A.D. / 2)

yaşlı birisi, karı.

qəribnəvaz Qəribə hörmət edən. (adam) (A.D. / 2)

garib birine hürmet eden, saygı gösteren.

qəribpərvər Qəribə hörmət edən. (A.D. / 2)

garib birine hürmet eden, saygı gösteren.

qəribsəməẋ Darıxmaq. (A.D. / 9)

özlemek.

qərzinka Çamadan. (RV, s 627)

bavul, valiz.

qəşmət Dəsmalı bir neçə dəfə üst-üstə qatlayıb alına bağlamaq. (RV, s 627)

baş örtüsünün alına bağlanma şekli.

qətrəhim Rəhimsiz. (A.D. / 2)

taş kalbli.

qəyə Qaya, daş. (RV, s 627)

kayalık.

qəzi Gözəl, qəşəng. Yaman qəzi görünürsən böyin (RV, s 627) .

güzel.

qəzil Keçi tükü. (A.D. / 2)

keçi tüyü.

qəzilləməẋ Aldatmaq. Məni qəzilliyən hələm anasınnan olmuyuf. (ADQŞ s 189)

aldatmak.

qıcı Vəzəri, iyli ot. Qıcı yeməynən qəşəy gedir. (ADDL)

su teresi.

qıdır-mıdır Anlaşılmayan başa düşülməyən danışıq. Dərədən keçəndə bir qıdır-mıdır eşitdim. (A.D. / 2)

anlaşılmayan konuşma.

qidmel Qısa. Genə o qidmel yupkanı geyinəsən. (A.D. / 3)

kısa.

qıfşamax Kiflənmək, iylənmək, xarab olmaq. (A.D. / 2)

bozulmak.

qığmərə Uşaq oyunu. (Uşaqlar qoyun qığı yığır və yeddi kiçik mərə qazıyıb oynayırlar) Uşaxlar quzu otaranda qığmərə oynuyullar. (ADDL s 131)

çocuk oyunu.

qığmətə Uşaq oyunu. Ay bala ta gəlin öyə səhər genə qığmətə oynuyarsıŋız. (ADDL)

çocuk oyunu.

qıxmıx Odun qırıntısı. (RV, s 627)

odun kırıntısı.

qıj 1) nazik ip. 2) zirvə, dağın qaşı. (A.D. / 2)

1) ince 2) dağın tepesi.

qıjanmax Hədələmək. (A.D. / 3)

gözünü korkutmak.

qijənmək Qorxutmaq (uşağa qıcanmaq). (RV, s 628)

korkutmak.

qıjı 1) qaytan, ayaqqabı bağı. 2) Rəngli sap. köynək qıjıynan tikilif. Ayaqqabıŋ qıjısın yaxşı bağla. (ADDL)

1) ayakkabı bağı. 2) renkli iplik.

qiliş Qılınc. (RV, s 628)

kılıç.

qımcammax Yerində tərpənmək. (A.D. / 2)

yerinde kımıldamak.

qımıldammax Tərpənmək. (A.D. / 2)

kımıldanmak.

qımılmax, qımımax, qımıtmax Yüyürmək, qaçmaq. (A.D. / 2)

koşmak.

qımışmax Gülümsəmək. (A.D. / 1)

gülümsemek.

qımız Turş. (A.D. / 2)

ekşi.

qımzanmax Tərpənmək. (RV, s 627)

kımıldamak.

qınalamax Qınamaq. (A.D. / 2)

kınamak.

qindi Sıyıq. (A.D. / 3)

çorba, sütle undan yapılan yemek.

qıpılmax Yüyürmək, sürətlə getmək. Elə qıpıldı bir anda gözdən itdi. (ADDL)

hızlıca koşmak.

qıracax Heyvanın dırnağını kəsmək, hamarlamaq üçün alət. Qıracağı gəti heyvannarın dırnağın kəsəx. (ADDL)

hayvan tırnak törpüsü.

qırcava Qırduz, duzlu. (A.D. / 2)

tuzlu.

qircimətel Qıvrım, burulu tel. (RV, s 628)

kıvırcık saçlı.

qırçı Xəsis. Mən belə qırçı adam görməmişəm. (ADDL)

cimri.

qırğın Mal-qaranın qabağından qalan ot və ya saman. heyvannarın qabağınnan qırğını yığ qalmasın. (ADDL)

ot kalıntısı.

qırxdilli İkiüzlü. (A.D. / 2)

ikiyüzlü.

qırxın Qoyun qırxan alət. Qırxını itilət qoyunu qırxax. (ADDL)

koyun tıraş makinesi.

qırıx Sınıq, qırıq. (RV, s 627)

kırık, kırılmış.

qırıldatmax Boş-boş danış(dır)maq. Nə qırıldadırsan. (ADDL)

geveze, birisini boş boş konuşturmak.

qırım Əhval, vəziyyət. Qırımınnan bilinir ki günün yaxşı keşmiyif. (ADDL)

durum, hal, vaziyet.

qırın-qırtı Çörək qırıntısı. (A.D. / 2)

ekmek kırıntısı.

qırışmal 1) üngül, ciddi olmayan adam 2) zarafatla müraciət. Ə:, qırışmal, bırə:l. (RV , s 627)

1) ciddi olmayan biri. 2) şakayla hitap etmek.

qırqırama Çox duzlu. Yeməyi eləmisən qırqırama qoymusan ora. (ADDL)

fazla tuzlu.

qırma Pöhrə, meşədən yığılmış nazik odun. (A.D. / 2)

ormandan toplanmış ince odun.

qırmalıx Kiçik palıd ağacları çox olan yer. Dəhrə qalıf qırmalıxda. (ADDL)

palıt ağacının çok bulunduğu yer.

qırna Kran. Qırnadan su dolduruf gəlin. (ADDL)

musluk.

qırpım Əl ilə yolunmuş taxıl. Bir torva qırpım yığmışam. (ADDL s 141)

el ile toplanan tahıl.

qırtız Yundan əyrilmiş ipi hamarlayan dəmir alət. (A.D. / 1)

yundan alınmış ipliği pürüzsüz hala getiren alet.

qısğı Qorxu, hədə - qorxu. No:lub nə qısğıya düşmüsən? (ADDL s 143)

gözünü korkutmak.

qısxanc Həşərat (qulağagirən). (RV, s 627)

böcek.

qıvşamış İylənmiş, pis iyli. (A.D. / 2)

kokmuş, kötü kokulu.

qiyax Ot adı. Qiyax yaxşı ot dəyil. (ADDL)

ot adı.

qızba:n, qızbo:ğan Kərtənkələ. (A.D. / 2)

kertenkele.

qızdarquşu Sarıköynək quşu. (A.D. / 2)

çalıkuşu.

qızılquyrux Sərçəyəoxşar qırmızı təhər quş. (A.D. / 2)

serçeye benzer kuş.

qızırğalammax Qıymamaq, xəsislik etmək. Əyninə-başına bir şey almağa da qızırğalanır. (ADQŞ s 189)

cimrilik yapmak.

qızırğalanmax Qənaət etmək. (RV, s 628)

tasarruf etmek.

qoax 1) qozun qabığı, 2) saçın diblərində kəpək. (RV, s 627)

1) cevizin kabuğu

2) saç kepeği.

qoja Nənə. (A.D. / 2)

nine.

qolay Pis. Qolay adamnan mənim zəhləm gedir. (ADQŞ s 189)

kötü.

qolazdamax Tullamaq. Daşı nətər qolazdıyıf atdısa gəlif dəydi təpəmə. (ADDL)

atmak. Bir şeyi atmak.

qolçax Biçində qola dolanan parça, sarıq. (A.D. / 2)

sargı.

qoltuxdançıxma Oyun adı. (A.D. / 2)

oyun adı.

qomarramax Dövrəyə almaq, mühasirə etmək. Qomarrıyın tutun onu. (ADQŞ s 189)

kuşatmak.

qondara Dikdaban ayaqqabı. Qondara indiki kimi olmurdu. (ADQŞ s 189)

topuklu ayakkabı.

qonqumax Çömbəlib oturmaq. Qonquyuf oturuf uşax kimi. (ADQŞ s 189)

dizlerini bükerek topukları üzerine oturmak. çömelmek.

qotma Kiçik ot tayası. (A.D. / 2)

saman stoku.

qovğa 1) Müharibə 2) Dava-dalaş. Bizim qonşu vətən qovğasında şəhid oldu. (ADDL)

savaş.

qovğaçı Davakar. Bir belə qavğaçı olma. (ADDL)

kavgacı.

qovğalı Dava-dalaşlı, bəlalı. Nə vaxdı bılar qavğalıdılar. (ADDL)

olaylı.

qöət Güc, qüvvət. (RV, s 627)

güç, kuvvet.

quarranmax Güvənmək. Uşax həməşə atasına quarranar. (ADQŞ s 189)

güvenmek.

qulağagirən Qırxayaq. (A.D. / 7)

kırkayak.

qulağaltı Ləçək. Qulağaltısın atıf başına gəldi. (ADDL)

baş örtüsü.

qulax Az, balaca. (RV, s 628)

az, biraz.

qulan At balası. Atın balasına qulan da deyillər. (ADDL)

at yavrusu.

qulun 4-5 aylıq at balası. (A.D. / 2)

at yavrusu.

quluş Belin quruması (qulunc olmaq). (RV, s 628)

belin tutulması.

qundax Körpə uşaq. (RV, s 628)

bebek.

qundur Qabaq, balqabaq. (A.D. / 2)

kabak, balkabağı.

quramaçı Yalançı. Quramaçı adamnan aram olmaz. (ADDL)

yalancı.

qurqut Çay balığından hazırlanmış yemək növü. (RV, s 628)

nehir balığından yapılan yemek.

qurres Ağılsız. Qurres fikirrərin var. (ADDL)

akılsız.

qurrey Sadəlövh, hər şeyə inanan. Qurreysəne hər şeyə inanırsan. (ADDL)

saf, herşeye inanan.

qurtdamax Dişlərin dibini təmizləmək, qurdalamaq. (A.D. / 2)

diş diblerini temizlemek.

quşəpbəyi Bitki. (A.D. / 2)

bitki.

quşürəyi Üzümün bir növü. (A.D. / 2)

yüzüm çeşiti.

qutəppəri Səliqəli. (A.D. / 2)

düzenli.

quyruxlamax Birindən əl çəkməmək, zəli kimi yapışmaq. Quyruxlıyıf bıraxmırsan adamı. (ADDL)

yakasından düşmemek.

quzuçu Quzulara baxan, quzu otaran balaca çoban. (RV, s 628)

çoban.

qüzey Gün düşməyən yer. (RV, s 628)

güneş almayan alan.

lafdan Qəflətən, gözlənilmədən. Lafdan yağış bizi tutdu. (ADQŞ s 189)

ansızın, beklenmedik.

lağlağı Zarafat. (RV, s 628)

şaka.

laxşan Xarab. Yumurta laxşan olub. (ADDL s 293)

bozuk.

lakkıltı Uzun-uzadı boş danışma. (A.D. / 4)

lakkırtı.

lalətərə Lalə. (A.D. / 2)

lale.

lalımax Yalvarmaq. Sə:rdən lalıyıram. (ADQŞ s 189)

yalvarmak.

lalımaq Zarımaq, yalvarmaq. (RV, s 628)

yalvarmak.

lambışka Elektrik lampası. (RV, s 628)

elektrik lambası.

lapdan Qəflətən, gözlənilmədən. (RV, s 628)

aniden, beklenmedik zamanda.

lay Sıra, cərgə. Beş-altı lay ot çaldım. (ADQŞ s 189)

sıra.

laylamax Yaymaq. Otu laylamasan yaxşı qurumaz. (ADQŞ s 190)

yaymak.

lejan Bol, çox. (A.D. / 2)

fazla, çok, bol.

ləhləməẋ Təngnəfəs olmaq, yorulmaq. (A.D. / 2)

yorulmak, nefes nefese kalmak.

ləliẋ Yorğun. (A.D. / 2)

yorgun.

ləm Yavaş, səssiz. Suyun ləm axan yeri dərin olar. (A.D. / 2)

sessiz, yavaş.

ləmbəki Nəlbəki. (RV, s 628)

çay tabağı.

ləmə Rəf. (A.D. / 2)

raf. Kitap rafı.

ləngəri Mis sini, nəlbəki. (A.D. / 2)

çay tabağı.

ləvənd Tənbəl. (A.D. / 2)

tembel, çalışmayı, iş yapmayı sevmeyen.

ləvərə 1) axmaq, səfeh. Ləvərə adamın buynuzu olmaz ki. 2) cılız, zəif. Bu uşax çox ləvərədi. (ADQŞ s 190)

1) aptal, budala, enayi

2) zayıf.

licimsiz, lijimsiz Səliqəsiz. (A.D. / 5)

dağınık.

lığ Palçıq (lığa batmaq). (RV, s 628)

çamur.

lığlama Ağzına qədər dolu. Qabı lığlama dolduma, tökülüf dağılar. (ADQŞ s 190)

tıka basa dolu.

lığlamax Ağzına qədər doldurmaq. Bu tayı lığlamısan,güjüm çatmır. (ADQŞ s 190)

tıka basa doldurmak.

lijim 1) görkem 2) səliqə. (A.D. / 2)

1) görüntü, görünüm 2) düzen.

lijim Geyim, libas. (RV, s 628)

giyim.

lijimsiz Səliqəsiz. (RV, s 628)

düzensiz.

lıqqa, lığ Palçıq. (A.D. / 2)

çamur.

liləmar İlıq. (A.D. / 2)

ılık.

linç Yumşaq. (A.D. / 2)

yumşak.

livə Şit, yaltaq. (A.D. / 2)

dalkavuk.

lodura Sap dolamaq üçün taxta əşya. (RV, s 628)

sap döndürmek için tahtadan alet.

loxma Bir dişləm. (dürmək loxması). (RV, s 628)

lokma; ağıza bir defada götürülebilecek, bir defada çiğnenebilecek büyüklükte yiyecek parçası.

lopa-lopa İri-iri. (A.D. / 1)

lapa lapa.

loş Tənbəl. (A.D. / 2)

tembel.

loşumax Tənbəlləşmək. (A.D. / 2)

birşey yapmaya isteksiz olmak.

ma Vermək feilinin əmr forması. O qabı ma . (A.D. / 6)

ver- fiilin emr kipi.

madar Tək, yeganə. (A.D. / 2)

tek, yalnız.

mafarrı Güclü, qüvvətli. (A.D. / 2)

güçlü, kuvvetli.

mağal Heyvanların günorta yığıldığı yer. Heyvannar günorta mağala yığılır. (ADQŞ s 190)

öylen saatinde hayvanların toplandığı yer.

mağıl Heç olmasa, hərçənd. (A.D. / 2)

hiç olmazsa.

mağmın 1) bir şeydən məhrum olan. 2) biabırçı. (A.D. / 2)

birşeyden mahrum kalmış.

mahna Bəhanə. (A.D. / 2)

bahane.

maxlətə Mərdumazar. (A.D. / 2)

ara bozan, ortalığı karıştıran.

malalamax Sakitlik yaratmak. (A.D. / 2)

ara buluculuk yapmak, ortamı sakinleştirmek.

malyeməz Xəsis. (A.D. / 2)

cimri.

mama 1) ana 2) bibi, atanın bacısı.

1) anne 2) hala, babanın kız kardeşi (ablası).

manqur Pul. (A.D. / 2)

para.

marıtdamax Diqqətlə baxmaq. (A.D. / 8)

dikkatlice bakmak.

maş Lobya. (A.D. / 3)

fasulye.

matax Qəşəng, yaxşı. (RV, s 628)

güzel, iyi.

mavrı Pişik balası. (A.D. / 2)

kedi yavrusu.

mehr Meyl salmaq. (RV, s 628)

meyl etmek.

merat Lazımsız əşya (zibil). (RV, s 628)

gereksiz eşya, çöp.

meşəcırası Quş adı. (RV, s 628)

kuş adı.

meşox Kisə. (A.D. / 4)

çuval.

məhlim Məgər. (A.D. / 2)

meğer.

məhraba Dəsmal. (A.D. / 2)

havlu.

məxmirəh Qırmızı səpkili yoluxucu uşaq xəstəliyi (məxmərək). (RV , s 628)

hastalık ismi.

məjməhi Mis və ya başqa metallardan düzəldilmiş naxışlı qab; böyük sini. (RV, s 628)

bakır veya diğer metallardan yapılmış mücevherli kab; büyük tepsi.

mələçə Payız armudu. Mələçə qutardı qalmadı. (ADQŞ s 191)

sonbahar armutu.

mələfə Döşəkağı. (RV, s 628)

nevresim.

məməsür İtburnu. Məməsür meşələrdə olur. (ADQŞ s 191)

kuşburnu.

mənsil Məhsul, qazanc. (RV, s 628)

ürün, kazanç, gelir.

mərəkə Qarışıqlıq. (RV, s 628)

karışık.

mərəkə Yığıncaq. (A.D. / 2)

toplantı.

mərəvcə Yaz gələndə bitən yabanı bitki. (RV, s 628)

sonbaharda büyüyen yabani bitki.

mərvu Gözü parıldayan (mərvu pişik). (RV, s 629)

gözü parlayan (kedi).

məstahat Məsləhət. (RV, s 629)

tavsiye.

mıxəşər Tumu çıxarılmış zoğal. (A.D. / 5)

çekirdeği çıkarılmış kızılcık.

mındar Pis niyyət. (A.D. / 4)

kötü düşünceli.

mırıx Dişsiz, dişi olmayan. (A.D. / 2)

dişsiz, dişleri dökülmüş.

mırız-mırız Acıqlı, qaşqabaqlı. (A.D. / 2)

suratsız, meymenetsiz.

mırqız Tərs-tərs baxmaq, qaşqabaqlı. Mırqız sifət. (A.D. / 6)

ters ters bakmak, somurtkan.

mırmel Küt, key, bacarıqsız. (A.D. / 2)

aptal, salak, sersem, kafasız.

mırtdamax Çox danışmaq, donquldanmaq. (RV, s 629)

çok konuşmak, övünmek.

mırtıqa Tərhalva. (A.D. / 2)

helva çeşiti.

mısıtmax Günahını başa düşmək. (RV, s 629)

günahını anlamak.

mısmax Küsmək. Genə noluf mısmısan. (A.D. / 2)

küsmek, darılmak.

mizqan Kiçik kamança. (A.D. / 2)

küçük keman (alet).

mor Kül ilə kömürün qarışığından alınan rəng. (A.D. / 2)

gri tonlarında renk.

möhüv Ehtiyac. (A.D. / 2)

ihtiyaç.

mubahlıq Bolluq. (A.D. / 2)

bolluk.

muxuru Balaca ev, koma. (RV, s 629)

küçük ev, kulübe.

muşqulat Məşğuliyyət. (A.D. / 2)

uğraşı.

müsdər Şikəst. (A.D. / 2)

sakat.

müstər Bacarıqsız, əmək sevməyən. (A.D. / 2)

beceriksiz, çalışmayı sevmeyen.

müzüy Göz yaşı. (A.D. / 2)

göz yaşı.

nacax Kiçik balta. (A.D. / 2)

küçük balta.

naçax Xəstə. Uşax naçaxdı. (A.D. / 2)

hasta.

naçaxlamax Xəstələnmək. Soyuğ dəyif naçaxlamışam. (ADQŞ s 191)

